Çıx get, qapı açıqdı,
kimsən, gözümlə gördüm.
ürəyində nə vardı,
indi üzündə gördüm...

tələs, sabah olacaq,
sonuncu ulduz sönür...
əlbətə, çox peşmanam,
mələk sanmışdım səni...

sevgimə rəhmət dedim,
sənsə, hərdənbir düşün;
kimin boynunda qalır
qanı öldürülmüşün...

belə bitməzdi gərək,
sənə nə deyim, qadın;
axı şansın varıydı,
niyə Mələk olmadın?...

***



Günün hansı vaxtıdır,
saat neçədir indi?..
durub kimdən soruşum,
halım necədir indi?..

ilin hansı fəslidir,
payızdır indi yəqin...
bir gün gələr demişdin,
həminkigündü yəqin...

nə demişdin həmin gün,
məni yola salanda:
-"bundan sonra eynidir,
sənə düz də, yalan da..."

...çətin işdi, oturub
gözlərini döyəsən...
...hava yaman qaraldı,
günəş doğur, deyəsən...

***

Sən son cümləni yazdın,
mən də nöqtəni qoydum...
kitabını bağladım,
səndə nöqtəni qoydum...

...sonra səni çağırdım,
sən də yubandın nəsə...
adını heca-heca
dedim ki, gec gedəsən...

...sonra səhər açıldı,
kimsə döydü qapımı:
-"bir az əvvəl ölmüsən,
gəl, meyidin tapılıb... "

***

Bircə səni düşünmüşdüm
mən bu uzun gecəni...
divardakı köhnə saat
görən vurdu neçəni?..

görən, kimi qarşılayır
uzaqdakı it səsi?..
nə yazıqdı bu çöl-bayır,
ovudarmı bir kəsi?..

qaranlıqla danışıram,
nə ürəyim var, nə sən...
xoşuna gəlməz şeytanın,
qorxuram "Allah" desəm...

**Mətləb Ağa**